MÜSTƏQİLLİYİMİZİN QƏHRƏMANLIQ ZİRVƏSİ

"Şəhidlərimiz unudulmur" mövzusunda tədbir keçirilmişdir

Qəbələ Mədəniyyət Mərkəzində rayon mərkəzləşdirilmiş kitabxana sistemi ilə rəsm qalereyası 20 Yanvar faciəsinin 28 ildönümünə həsr olunmuş birgə tədbir keçirmişlər.

Əvvəlcə 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin müqəddəs xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Anar Rüstəmli Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar faciəsi barədə ətraflı məlumat vermişdir. O, çıxışında Sovet ordusunun xüsusi hazırlıqlı döyüşən hissələrinin Bakı şəhərinə yeridilməsi nəticəsində dinc, əliyalın adamlara qarşı törədilən misli görünməmiş qətliamın xalqın mübarizlik əzmini qıra bilmədiyini və qanlı faciənin ümumxalq hərəkatına çevrildiyini qeyd etmişdir. Natiq demişdir ki, ümummilli lider Heydər Əliyev 21 yanvar 1990-cı il tarixdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bu qanlı hadisəni törədənləri- şəxsən SSRİ-nin rəhbəri Mixail Qorbaçovu kəskin pisləyən bəyanat vermiş, bunun demokratik prinsiplərə və insanlığa sığışmayan vəhşilik olduğunu bildirmişdir.

Anar Rüstəmli vurğulamışdır ki, həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları müstəqilliyimiz uğrunda mübarizədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar . Məhz bunun nəticəsində xalqımız uzun illərdən bəri arzusunda olduğu azadlığına və müstəqilliyinə qovuşduğunu və ölkəmizin suverenlik əldə etdiyini diqqətə çatdırmışdır.

Mərasimdə çıxış edən mədəniyyət mərkəzinin direktoru Malik Ağayev, MKS-nin əməkdaşları Nəzakət Rəfiyeva, Vüsalə Yunusova və digərləri azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin qəhrəmanlıq mübarizəsinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini, onların çox böyük hörmət və ehtiramla anıldığını qeyd etmişlər.

Tədbirdə məktəblilərin hazırladığı 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir.

Sonda 20 Yanvar şəhidlərinə həsr olunmuş rəsm sərgisinə baxış keçirilmişdir.

Günel QARAYEVA,
mərkəzi kitabxananın işçisi.

Şeir müsabiqəsi

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər 1 nömrəli tam orta məktəbdə 20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünə həsr edilmiş yeniyetmə və gənclər arasında "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi keçirilmişdir.

Müsabiqənin keçirilməsində məqsəd Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı 20 Yanvar faciəsində şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını, onların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini və şəhidliyin müqəddəs bir zirvə olduğunu ictimaiyyətə çatdırmaq, həmçinin yeniyetmə və gəncləri bədii yaradıcılığa həvəsləndirməkdən ibarətdir.

Müsabiqənin açılış mərasimində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və təhsil şöbəsinin metodisti Tərbiyə İsayeva çıxış edərək 20 Yanvar faciəsinin baş vermə səbəbləri barədə danışmış, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi vəziyyət haqqında tədbir iştirakçılarına məlumat vermişlər.

Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan 20-dən artıq şagird iştirak etmişdir. Onlar torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər səsləndirmişlər. Müsabiqənin əsasnaməsinə uyğun olaraq Aydan Cəfərova I yerə, Rəsul Qasımov və Aişə Məmmədova II yerə, Selcan Rəfizadə, Sevinc Əliyeva və Lamiyə Səfərova III yerə layiq görülmüşlər.

Qaliblər gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

Mübariz AĞAYEV,
gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.

Tariximizin qan yaddaşı 20 Yanvar

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 20 Yanvar Ümumxalq Hüzn Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbiri mərkəzin direktoru Eyvaz Kazımov açıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Eyvaz Kazımov bildirib ki, 20 Yanvar faciəsindən 28 il keçsə də həmin günlərin qəhrəmanları unudulmur, əksinə zaman keçdikcə vətənimizin azadlığı uğrunda canından keçən şəhidlərimiz gözlərimiz önündə daha da böyüyür, müqəddəsləşir.

Sonra tədris mərkəzinin müəllimi İlham Əfəndiyev 20 Yanvar faciəsinin baş verməsinin səbəbləri və nəticələri barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. Natiq qeyd etmişdir ki, 20 Yanvarda və Qarabağ uğrunda döyüşlərdə şəhid olan oğul və qızlarımızın qanı yerdə qalmayacaq. Doğma Qarabağımız düşmən tapdağından azad olacaq. 2016-cı ilin 4 günlük aprel döyüşləri sübut etdi ki, qəhrəman ordumuz torpaqlarımızı qısa müddətdə azad etməyə qadirdir.

İstehsalat təlimi ustası Azər Abdulxalıqov bildirdi ki, 20 Yanvar hadisələrinin canlı şahidi olub. O, gənclərə şəhidlərimizin xatirəsinə həmişə ehtiram göstərməyi tövsiyə etdi.

Vüsalə QƏRİBOVA,
tədris mərkəzinin psixoloqu.

Stolüstü tennis üzrə xatirə turniri

Rayon gənclər və idman idarəsi uşaq-gənclər idman-şahmat məktəbi ilə birlikdə 17-18 yanvar 2018-ci il tarixlərdə 20 Yanvar-Ümumxalq Hüzn Gününə həsr edilmiş stolüstü tennis üzrə məktəblilər arasında rayon turniri keçirmişdir.

Turnir iştirakçıları əvvəlcə şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Tədbiri giriş sözü ilə açan Qəbələ UGİŞM-in direktoru Ədalət Əliyev qanlı 20 Yanvar gününün tarixi haqqında idmançılara məlumat vermişdir. Sonra Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Müşfiq Abbasov, həmin idarənin aparıcı məsləhətçisi Elçin Osmanov, yarışların baş hakimi Kamran Cabbarov və başqaları çıxış etmişlər.

Xatirə turnirində 30-dək idmançı gərgin oyun nümayiş etdirmişlər.

Yarışın nəticəsinə əsasən Abrıx kənd tam orta məktəbinin şagirdləri Amil Ağakərimov I yeri, Fəqan Mustafayev II yeri və şəhər 1 nömrəli tam orta məktəbinin şagirdi Eşqin Əhmədov III yeri tutmuşdur.

Qaliblərə rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

Elçin OSMANOV,
Gİİ-nin aparıcı məsləhətçisi,
Nəzakət ƏLİZADƏ,
UGİŞM-nin müəllimi.

20 Yanvar xalqımızın qan yaddaşından heç vaxt silinməyəcək



Qəbələ Peşə Məktəbində "20 Yanvar - qəhrəmanlıq salnaməsi" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə məktəbin psixoloqu Zənfilə Hüseynova açıb. Müstəqilliyimiz uğrunda şəhid olan vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə məktəbin direktoru Azad Məmmədov, tədris-istehsalat işləri üzrə direktor müavini Camal Rəsulov, şagirdlərdən Yunus Alxasov, Türkan Davudova və başqaları çıxış ediblər. Çıxışlarda şəhidlərimizin qəhrəmanlıq salnaməmizdə yeni səhifə açdıqları bildirilib. 20 Yanvar şəhidlərinin əzmkar mübarizəsinin xalqımızın milli oyanış, özünüdərketmə yaddaşını stimullaşdırdığı və nəticədə bu duyğuların ümumxalq hərəkatına çevrildiyi diqqətə çatdırılıb. Natiqlər şəhidlərimizin canları, qanları bahasına başa gələn istiqlalımızın gündən-gündən möhkəmlənərək daha da inkişaf etdiyini, müstəqil ölkəmizin bu gün beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu qeyd ediblər.

Sonra qanlı 20 Yanvar hadisələrini əks etdirən video çarx nümayiş etdirilib.

Tədbir məktəbin şagirdləri tərəfindən hazırlanmış bədii kompozisiya ilə davam etdirilib.

Mabid ƏZİMOV,
məktəbin müəllimi.